*Azərbaycan Respublikasının*
*əmək və əhalinin sosial*
*müdafiəsi nazirinin “___”*
*___________ 2025-ci il*
*tarixli*
*__________________*
*nömrəli*
*əmri ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Əlillik siyasəti şöbəsinin Əsasnaməsi**

## I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Əlillik siyasəti şöbəsi (bundan sonra – Şöbə) əlillik, reabilitasiya və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi sahəsində (bundan sonra - müvafiq sahə) qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi, qanunvericiliyin tətbiqi, müvafiq sahə üzrə siyasətin müəyyənləşdirilməsi, bu istiqamətdə araşdırmaların və təhlillərin aparılması, əlilliklə əlaqədar risklərin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərə dair təkliflərin hazırlanması istiqamətində tədbirləri və tənzimləməni həyata keçirir, müvafiq sahədə fəaliyyətin səmərəliliyinə, dövlət xidmətlərinin keyfiyyətinin və vətəndaş məmnunluğunun artırılmasına nəzarət edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası"nı və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”ni və Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin (bundan sonra – Nazir) əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin digər struktur bölmələri, Nazirlik sisteminə daxil olan qurumlar (bundan sonra – Nazirliyin struktur bölmələri), eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## II. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Müvafiq sahədə siyasətin formalaşdırılmasını və həyata keçirilməsini təmin etmək və bununla bağlı Nazirliyin rəhbərliyinə təkliflər vermək;

2.1.2. Müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. Müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər vermək.

## III. Şöbənin vəzifələri

3.1. Şöbənin bu əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Tibbi-sosial ekspertizanın, əlilliyi olan şəxslərin reabilitasiyasının və sosial müdafiəsinin təşkil edilməsi məqsədilə tədbirlər həyata keçirmək, bu sahədə Nazirliyin struktur bölmələri ilə əməkdaşlıq etmək;

3.1.2. Tibbi-sosial ekspertiza məsələləri, reabilitasiya vasitələrinin verilməsi və reabilitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı vətəndaş müraciətlərini araşdırmaq və cavablandırmaq;

3.1.3. Əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı qabaqcıl təcrübənin öyrənilməsi və reabilitasiya vasitələrinin siyahısının genişləndirilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq təkliflər hazırlamaq;

3.1.4. Əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində mütəxəssislərin təkmilləşdirilməsi və ixtisasının artırılması işinin təşkilində iştirak etmək;

3.1.5. Tibbi-sosial ekspertiza və əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı strukturların təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir tələblərə cavab verməsi üçün təkliflər hazırlamaq;

3.1.6. Əlilliyi olan şəxslərin fərdi reabilitasiya proqramları üzrə tibbi-sosial, psixoloji və peşə-əmək reabilitasiyanın həyata keçirilməsi ilə bağlı qanunvericilik bazasını təkmilləşdirmək;

3.1.7. Əlilliyin sosial modeli ilə əlaqədar mütərəqqi beynəlxalq qanunvericilik təcrübəsini öyrənmək və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.1.8. Əlilliyi olan şəxslərin problemləri ilə bağlı konfrans və seminarlarda iştirak etmək, onların cəmiyyətə inteqrasiyası ilə bağlı maarifləndirmə işləri aparmaq;

3.1.9. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının icrası ilə bağlı Azərbaycan Hökumətinin dövrü hesabatlarını hazırlamaq;

3.1.10. Əlilliyi olan şəxslərin cəmiyyətin həyatında bərabər hüquqlu üzvlər kimi yaşaması və fəaliyyət göstərməsi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər görmək və bununla əlaqədar qanunvericiliyi təkmilləşdirmək;

3.1.11. Əlilliyi olan şəxslər üçün maneəsiz mühitin yaradılması və mövcud infrastrukturun əlilliyi olan şəxslər üçün müyəssər edilməsinə dair təkliflər vermək;

3.1.12. BMT sisteminə daxil olan təşkilatlar, Dünya Bankı, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə layihələrin hazırlanması və tətbiqi, həmin təşkilatlardan daxil olan müxtəlif sorğuların cavablandırılması, eləcə də beynəlxalq konfrans və tədbirlərdə iştirak etmək;

3.1.13. Əlilliyi olan şəxslər barəsində etibarlı və müfəssəl informasiya sisteminin, reyestrin yaradılması istiqamətində işlər görmək;

3.1.14. Mərkəzi, yerli icra və özünüidarəetmə orqanlarında əlilliyi olan şəxslərin sosial müdafiəsi ilə bağlı yaradılmış müvafiq komissiyaların, işçi qruplarının işində iştirak etmək;

3.1.15. Əlilliyi olan şəxslərin reabilitasiyasının təmin edilməsi ilə bağlı xüsusi proqramların hazırlanmasında iştirak etmək və bu sahəyə aid təlimlər təşkil etmək;

3.1.16. Əlilliklə bağlı əhaliyə göstərilən xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun artırılması, əlilliyə görə ödənilən müavinət və təqaüdlərin artırılması ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.17. Fəaliyyət istiqamətləri üzrə vətəndaşların qəbulunu, onların müraciət, ərizə və şikayətlərinə qanunvericilik çərçivəsində baxılmasını təmin etmək;

3.1.18. Əlillik təyinatlarının müxtəlif risk qrupları üzrə araşdırılması, bununla bağlı aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlığın aparılması, dövrü statistik hesabatların hazırlanması və Nazirə təqdim edilməsini həyata keçirmək;

3.1.19. Əsassız əlillik təyinatlarının qarşısının alınması ilə bağlı preventiv tədbirlərə dair təkliflər hazırlamaq;

3.1.20. Əsassız əlillik təyinatları ilə mübarizədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlər həyata keçirmək;

3.1.21. Aparılan təhlillərin nəticələrinin araşdırılması və tədbirlərin görülməsinə dair təkliflər hazırlamaq;

3.1.22. Əlilliyi doğuran səbəblərin öyrənilməsi, əlilliyin vəziyyəti, əlilliyin qarşısının alınması sahəsində araşdırmalar aparmaqla əlilliyi olan şəxslərin tibbi-sosial və peşə-əmək reabilitasiyasına dair yeni metodların işlənib hazırlanmasında iştirak etmək;

3.1.23. Əlillik problemlərinə dair araşdırmaların aparılmasında və monitorinqlərin keçirilməsində iştirak etmək, əlilliyin dinamikasına dair təhlillər aparmaq, hesabatlar və proqnozlar hazırlamaq;

3.1.24. Dövri olaraq (aylıq, rüblük, illik) əlillik təyinatları barədə analitik təhlillərin aparılması və rəhbərliyə təqdim edilməsi üçün arayışlar hazırlamaq;

3.1.25. Əlilliyin müəyyən olunması meyarlarının mütəmadi olaraq təkmilləşdirilməsi ilə bağlı ən yaxşı təcrübələr öyrənilməklə təkliflər hazırlamaq;

3.1.26. Əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələrinə dair tibbi göstərişlərin verilməsi və digər sahələr üzrə metodiki vəsaitlər hazırlamaq;

3.1.27. Əlilliyin müəyyən edilməsi ilə bağlı göndərişlərin rəsmiləşdirilməsi işinin təşkilində həkim-məsləhət və hərbi-həkim komissiyaları ilə əməkdaşlıq etmək;

3.1.28. Əlilliyin müəyyən olunması meyarları ilə bağlı konfrans və seminarlarda iştirak etmək;

3.1.29. Nazirlikdə yaradılmış araşdırma komissiyasının fəaliyyətinin təşkilini və koordinasiyasını təmin etmək;

3.1.30. Xüsusi səbəblə əlilliyə görə müraciət edən vətəndaşların müraciətlərini araşdırmaq;

3.1.31. Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi ilə bağlı vətəndaş müraciətlərini araşdırmaq və cavablandırmaq;

3.1.32. Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi ilə bağlı göstərilən xidmətlərin optimallaşdırılması və təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.33. Müddətli həqiqi hərbi xidmətə yararsızlığı müəyyən edən meyarların mütəmadi olaraq təkmilləşdirilməsi ilə bağlı ən yaxşı təcrübələr öyrənilməklə qanunvericiliyə dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.34. Müddətli həqiqi hərbi xidmətə yararsızlığı müəyyən edən meyarlarla bağlı konfrans və seminarlarda iştirak etmək;

3.1.35. Çağırışçıların yekun tibbi müayinəsi ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir tələblərə cavab verməsi üçün təkliflər hazırlamaq;

3.1.36. Çağırışçıların yekun tibbi müayinəsi ilə bağlı məlumatların toplanılması və həmin müayinənin nəticələrinin rəsmiləşdirilməsinin təkmilləşdirilməsinə dair təkliflər vermək.

3.1.37. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək;

## IV. Şöbənin hüquqları

4.1. Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Əlilliklə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilən tədbirlərdə iştirak etmək, müvafiq sahə üzrə qanunvericilik və inzibatçılığın təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.2. Əlilliklə bağlı müfəssəl məlumat bazasını təşkil etmək, xidməti zərurətlə əlaqədar olaraq dövlət və yerli özünüidarəetmə orqanlarına, müvafiq idarə, müəssisə və qeyri hökumət təşkilatlarına, o cümlədən Nazirliyin digər strukturlarına sorğu vermək və onlardan müvafiq məlumatları almaq;

4.1.3. Respublikada fəaliyyət göstərən müvafiq ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları ilə əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əməkdaşlıq etmək;

4.1.4. Nazirliyin rəhbərliyi ilə razılaşdıraraq öz səlahiyyətləri daxilində əlillik və tibbi-sosial ekspertiza problemlərinə dair müşavirələr, konfranslar, seminarlar, görüşlər təşkil etmək və mediada çıxış etmək;

4.1.5. Əlilliyi olan şəxslərin sosial müdafiəsi və tibbi-sosial, psixoloji, peşə-əmək reabilitasiyasına dair beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq;

4.1.6. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə keçirilən yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək;

4.1.7. Fəaliyyət istiqamətlərinə uyğun digər dövlətlərin təcrübəsini öyrənmək, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi barədə təkliflər vermək;

4.1.8. Nazirliyin struktur bölmələri tərəfindən hazırlanmış sənədlər üzrə rəy vermək;

4.1.9. Şöbəyə daxil olmuş sənədlər üzrə fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, ümumiləşdirmələr aparmaq;

4.1.10. Fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş və Nazirliyin müvafiq qərarları ilə müəyyənləşdirilmiş digər hüquqları həyata keçirmək.

## V. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı Nazir tərəfindən müəyyən olunur və təsdiq edilir. Şöbə Nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs Şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

5.2. Şöbənin strukturuna Tibbi-sosial ekspertiza, Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, Monitorinq və təhlil, Reabilitasiya məsələləri və Çağırışçıların yekun tibbi müayinəsi sektorları daxildir.

5.3. Şöbənin fəaliyyətinə Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri Şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbə müdiri:

5.4.1. Şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.4.3. Şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra edilməsinə nəzarət edir;

5.4.4. Şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələləri Şöbə ilə müzakirə edərək müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, Şöbə tərəfindən bu Əsasnamənin 1.2.-ci bəndində göstərilən hüquqi aktların vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.4.5. Şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.4.6. Şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər struktur bölmələrindən zəruri məlumat və sənədləri alır;

5.4.7. Şöbəyə daxil olan müraciətlərə (ərizə, şikayət və təklif) qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.4.8. Şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.4.9. Şöbənin inzibati vəzifə tutan dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsini həyata keçirir;

5.4.10. Şöbənin fəaliyyəti barədə Nazirə hesabat verir;

5.4.11. Şöbənin əməkdaşlarının ixtisasının artırılması və əmək şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirləri həyata keçirir;

5.4.12. Nazirin tapşırığı ilə tədbirlərdə Nazirliyi təmsil edir.

5.5. Şöbə müdirinin Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır.

5.6. Şöbə müdirinin müavini şöbə müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini həyata keçirir.

5.8. Şöbənin digər əməkdaşları Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.9. Şöbənin əməkdaşları onlara tapşırılmış işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə və bu Əsasnamənin tələblərinin pozulmamasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## VI. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

### 6.1. Tibbi-sosial ekspertiza sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. Tibbi-sosial ekspertizanın və əlilliyi olan şəxslərin sosial müdafiəsinin təşkil edilməsi məqsədilə tədbirlər həyata keçirmək, bu sahədə Nazirliyin struktur bölmələri ilə əməkdaşlıq etmək;

6.1.2. Tibbi-sosial ekspertiza məsələləri ilə bağlı vətəndaş müraciətlərini araşdırmaq və cavablandırmaq;

6.1.3. Tibbi-sosial ekspertiza ilə bağlı strukturların təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir tələblərə cavab verməsi üçün təkliflər hazırlamaq;

6.1.4. Əlilliyin müəyyən olunması meyarlarının mütəmadi olaraq təkmilləşdirilməsi ilə bağlı ən yaxşı təcrübələri öyrənmək və təkliflər hazırlamaq;

6.1.5. Əlilliyin müəyyən edilməsi və digər sahələr üzrə metodiki vəsaitlər hazırlamaq;

6.1.6. Əlilliyin müəyyən edilməsi ilə bağlı göndərişlərin rəsmiləşdirilməsi işinin təşkilində həkim-məsləhət və hərbi-həkim komissiyaları ilə əməkdaşlıq etmək;

6.1.7. Əlilliyin müəyyən olunması meyarları ilə bağlı konfrans və seminarlarda iştirak etmək;

6.1.8. Əlilliyin qiymətləndirilməsi barədə qərarlardan verilmiş şikayətlərə baxılması üçün Nazirlikdə yaradılmış komissiyanın fəaliyyətinin təşkilini və koordinasiyasını təmin etmək;

6.1.9. Əlilliklə bağlı müraciət edən vətəndaşların müraciətlərini araşdırmaq.

### 6.2. Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. “Əlilliyi olan şəxslərin hüquqları" haqqında Qanunun tətbiqi ilə bağlı qanunvericilik aktlarının hazırlanması və təkmilləşdirilməsində iştirak etmək;

6.2.2. Əlilliyin sosial modeli ilə əlaqədar beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasını həyata keçirmək;

6.2.3. Əlilliyi olan şəxslərin problemləri ilə bağlı konfrans və seminarlarda iştirak etmək, onların cəmiyyətə inteqrasiyası ilə bağlı maarifləndirmə işləri aparmaq;

6.2.4. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının icrası ilə bağlı Azərbaycan Hökumətinin dövrü hesabatlarının hazırlanmasını həyata keçirmək;

6.2.5. Əlilliyi olan şəxslərin cəmiyyətin həyatında bərabər hüquqlu üzvlər kimi yaşaması və fəaliyyət göstərməsi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlərin görülməsi və bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi prosesində iştirak etmək;

6.2.6. Əlilliyi olan şəxslər üçün maneəsiz mühitin yaradılması və mövcud infrastrukturun əlilliyi olan şəxslər üçün müyəssər edilməsinə dair təkliflər vermək;

6.2.7. BMT sisteminə daxil olan təşkilatlar Dünya Bankı, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə layihələrin hazırlanması və tətbiqi, həmin təşkilatlardan daxil olan müxtəlif sorğuların cavablandırılması, eləcə də beynəlxalq konfrans və tədbirlərdə iştirak;

6.2.8. Əlilliyi olan şəxslər barəsində etibarlı və müfəssəl informasiya sisteminin, reyestrin yaradılması istiqamətində işlərin görülməsini həyata keçirmək;

6.2.9. Mərkəzi, yerli icra və özünüidarəetmə orqanlarında əlilliyi olan şəxslərin sosial müdafiəsi ilə bağlı yaradılmış müvafiq komissiyaların, işçi qruplarının işində iştirak etmək.

**6.3. Monitorinq və təhlil sektorunun vəzifələri aşağıdakılardır:**

6.3.1. Vətəndaşların qəbulu, telefon zənglərinin və müraciətlərin araşdırılması və cavablandırılmasını təmin etmək;

6.3.2. Öz səlahiyyətləri daxilində vətəndaşların qəbulunu, onların müraciət, ərizə və şikayətlərinə qanunvericilik çərçivəsində baxılmasını təmin etmək;

6.3.3. Əlillik təyinatlarını müxtəlif risk qrupları üzrə araşdırmaq, bununla bağlı aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlıq aparmaq, dövrü statistik hesabatları hazırlamaq və Nazirə təqdim etmək;

6.3.4. Əsassız əlillik təyinatlarının qarşısının alınması ilə bağlı preventiv tədbirlərə dair təkliflər hazırlamaq;

6.3.5. Əsassız əlillik təyinatlarına səbəb olan şəxslər və müəssisələr barədə qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülməsi ilə bağlı hüquq-mühafizə orqanlarına müraciətlər hazırlamaq;

6.3.6. Əsassız əlillik təyinatları ilə mübarizədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlər həyata keçirmək;

6.3.7. Aparılan təhlillərin nəticələrinin araşdırılması və tədbirlərin görülməsinə dair təkliflər hazırlamaq;

6.3.8. Əlilliyi doğuran səbəblərin öyrənilməsi, əlilliyin vəziyyəti, əlilliyin qarşısının alınması sahəsində araşdırılmalar aparmaqla əlilliyi olan şəxslərin tibbi-sosial və peşə-əmək reabilitasiyasına dair yeni metodların işlənib hazırlanmasında iştirak etmək;

6.3.9. Əlillik problemlərinə dair araşdırmaların aparılmasında və monitorinqlərin keçirilməsində iştirak etmək, əlilliyin dinamikasına dair təhlillər aparmaq, hesabatlar və proqnozlar hazırlamaq;

6.3.10. Dövrü olaraq (aylıq, rüblük, illik) əlillik təyinatları barədə analitik təhlillər aparmaq və rəhbərliyə təqdim edilməsi üçün arayışlar hazırlamaq.

**6.4. Reabilitasiya məsələləri sektorunun vəzifələri aşağıdakılardır:**

6.4.1. Əlilliyi olan şəxslərin reabilitasiyasının və sosial müdafiəsinin təşkil edilməsi məqsədilə tədbirlər həyata keçirmək, bu sahədə Nazirliyin struktur bölmələri ilə əməkdaşlıq etmək;

6.4.2. Reabilitasiya vasitələrinin verilməsi və reabilitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı vətəndaş müraciətlərini araşdırmaq və cavablandırmaq;

6.4.3. Əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı strukturların təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir tələblərə cavab verməsi üçün təkliflər hazırlamaq;

6.4.4. Reabilitasiya vasitələrinə dair tibbi göstərişlərin verilməsi və digər sahələr üzrə metodiki vəsaitlər hazırlamaq;

6.4.5. Əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı qabaqcıl təcrübənin öyrənilməsi və reabilitasiya vasitələrinin siyahısının genişləndirilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq təkliflər hazırlamaq;

6.4.6. Əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində mütəxəssislərin təkmilləşdirilməsi və ixtisasının artırılması işinin təşkilində iştirak etmək;

6.4.7. Əlilliyi olan şəxslərin fərdi reabilitasiya və abilitasiya proqramları üzrə tibbi-sosial, psixoloji və peşə-əmək reabilitasiyanın həyata keçirilməsi ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsinə dair rəy və təkliflər vermək;

6.4.8. Əlilliyi olan şəxslərin reabilitasiyasının təmin edilməsi ilə bağlı xüsusi proqramların hazırlanmasında iştirak etmək və bu sahəyə aid təlimlər təşkil etmək.

### 6.5. Çağırışçıların yekun tibbi müayinəsi sektorunun vəzifələri aşağıdakılardır:

6.5.1. Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi ilə bağlı vətəndaş müraciətlərini araşdırmaq və cavablandırmaq;

6.5.2. Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi ilə bağlı göstərilən xidmətlərin optimallaşdırılması və təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.5.3. Müddətli həqiqi hərbi xidmətə yararsızlığı müəyyən edən meyarların mütəmadi olaraq təkmilləşdirilməsi ilə bağlı ən yaxşı təcrübələr öyrənilməklə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.5.4. Müddətli həqiqi hərbi xidmətə yararsızlığı müəyyən edən meyarlarla bağlı konfrans və seminarlarda iştirak etmək;

6.5.5. Çağırışçıların yekun tibbi müayinəsi ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir tələblərə cavab verməsi üçün təkliflər hazırlamaq;

6.5.6. Çağırışçıların yekun tibbi müayinəsi ilə bağlı məlumatların toplanılması və həmin müayinənin nəticələrinin rəsmiləşdirilməsinin təkmilləşdirilməsinə dair təkliflər vermək.